# Avropa Şurası və ALTE-nin dil biliyi və cəmiyyətin miqrasiya siyasətinə dair sorğusu 2018-ci il



EDUCATION FOR DEMOCRACY

ALTE
Association of Language Testers in Europe

1949.2019

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE



## Əsas meyllər

Keçən on il ərzində Avropa Şurasının üzvü olan ölkələrdən bir çoxu miqrasiya və inteqrasiya siyasətinin bir hissəsi kimi rəsmi dil biliyi və cəmiyyət barədə məlumatlılığı tələblər sırasına daxil etmişdir.

Üzv ölkələrin çoxu rəsmi dil biliyi və cəmiyyət barədə məlumatlılıq tələbini miqrantlar vətəndaşlıq üçün müraciət edərkən qoyur. Üzv ölkələrin yarısında miqrantlar yaşayış, üçdə birində isə ölkəyə giriş hüququ almaq üçün bu tələblərə cavab verməlidirlər.

Üzv ölkələr arasında tələb olunan dil biliyinin səviyyəsinə dair əhəmiyyətli və nəzərəçarpan fərqlər var.

Həssas qruplar (yetkinlik yaşına çatmayanlar, qaçqınlar, oxu-yazı savadlılığı olmayan şəxslər) nadir hallarda bu imtahanlardan azad olunurlar.

Üzv ölkələrin çoxu müvafiq keyfiyyət nəzarətindən keçməyən testlərdən istifadə edir. Həmin testlərin miqrantlar üzərindəki təsiri isə çox az hallarda tədqiq edilir.

Demək olar ki, bütün üzv ölkələr dilin öyrənilməsini təmin etmək məqsədilə miqrantları müxtəlif imkanlarla təmin edir. Ancaq xüsusilə də həssas qruplar üçün ayrılan saatların miqdarı yetərsizdir.

# Tələblər və imtahanlar

2018-ci ildə sorğuda iştirak edən ölkələrdən 78%-ində vətəndaşlıq hüququ almaq üçün dil biliyi və cəmiyyət barədə məlumatlılığın olması tələblər sırasında yer almışdır. Ölkələrin 17%-inin isə miqrasiya siyasətinin bir hissəsi kimi belə bir tələbi yoxdur:




2007 və 2008-ci illərdə ölkələrdən daha çoxu, xüsusilə də vətəndaşlıq hüququ almaq üçün, qoyulan tələblərdən biri kimi dil imtahanları (tünd göy rəngdə) və cəmiyyət barədə məlumatlılıq testlərini (açıq mavi rəngdə) tətbiq etməyə başlamışdır:




Dil biliyinə qoyulan tələblər, demək olar ki, CEFR səviyyələrində ifadə olunduğu kimidir, lakin üzv ölkələrin eyni məqsəd üçün istifadə etdiyi dil səviyyələri arasında uyğunluq çox azdır.

# Öyrənmə imkanları

Miqrantlar üçün təklif edilən dil kursları adətən dövlət hesabına təmin edilir və onların keyfiyyətinə nəzarət vardır. Ancaq buna baxmayaraq, bir çox hallarda, miqrantlar dil kurslarının yalnız 250 saatını ödənişsiz alırlar:

**Ödənişsiz təmin edilən dil kurslarının saatları**

| | Bütün öyrənənlər üçün (say = 24) | Oxu-yazı savadlılığı olmayan şəxslər üçün (say = 22) |
|---|---|---|
| 0 – 250 | 11 | 13 |
| 250 – 500 | 8 | 4 |
| 500 – 1000 | 4 | 2 |
| 1000 – 1500 | 1 | 2 |
| 2000 – 3000 | 0 | 1 |

Üzv ölkələrin çoxu cəmiyyət barədə məlumatlılıq kursları da təklif edir. Çox hallarda bu kurslar yalnız həmin ölkənin rəsmi dilində keçirilir.

Üzv ölkələrin az bir hissəsi öz inteqrasiya siyasətində həssas qruplara kifayət qədər diqqət ayırır: Yetkinlik yaşına çatmayanlar üçün icbari məktəb dərslərindən başqa bir neçə dil kursu təklif edilir, ancaq qaçqınlar və oxu-yazı savadlılığı olmayan şəxslərin ehtiyacları nadir hallarda nəzərə alınır.

## Tövsiyələr

- Cəmiyyətə inteqrasiya olunmaq üçün kurslar imtahanlardan faydalıdır, elə buna görə də öyrənmə imkanları hamı üçün əlverişli və əlçatan olmalıdır.
- Əgər imtahanlar miqrasiya məqsədləri üçün istifadə olunursa, onlar keyfiyyətcə yüksək və ədalətli olmalıdır.
- Miqrasiya və inteqrasiya siyasətini hazırlayarkən, həssas qruplara xüsusi diqqət yetirilməlidir.
- İnsan hüquqlarını nəzərə alsaq, bir ailənin yenidən birləşməsi üçün hər hansı ölkəyə giriş məqsədilə tələblərin qoyulması ciddi şəkildə rədd edilir.

**2018-ci ildə keçirilən sorğuda Avropa Şurasına üzv olan 47 ölkədən 40-ı iştirak etmişdir:**



Avropa Şurası və ALTE-nin sorğusu aşağıdakı şəxslər tərəfindən keçirilmişdir:

- Lorenzo Rocca
  (Università per Stranieri di Perugia)
- Cecilie Hamnes Carlsen
  (Western Norway University of Applied Sciences)
- Bart Deygers
  (Ghent University)

Tərcümə:
Vafa Alakbarova
(Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi)

Hesabatın tam formasını aşağıdakı linkdən yükləyə bilərsiniz:
**www.coe.int/lang-migrants**

© Avropa Şurası, 2019

PREMS 033520

AZE

www.coe.int

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, təşkilat 47 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE